# Əli Rza XƏLƏFLİ - 70



Hörmətli Əli Rza Xələfli!

Sizi, görkəmli şair-publisist və naşiri 70 illik yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1953-cü il oktyabrın 1-də Cəbrayıl rayonunun Xələfli kəndində anadan olmusunuz. Əvvəl doğma kənd məktəbində, sonra Cəbrayıl şəhər M.Qorki adına tam orta məktəbində təhsil almısınız. 1975-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunu fərqlənmə diplomu ilə bitirmisiniz.

Əmək fəaliyyətinizə Cəbrayıl rayonunun Şahvəlli, Tatar, Aşağı Xəlfəli kənd orta məktəblərində başlamısınız. 1980-1993-cü illərdə "Xudafərin" qəzeti radaksiyasında, 1993-1995-ci illərdə "Qarabağ", sonra "Qoşa qanad", "Həyat" qəzetlərində məsul vəzifələrdə çalışmısınız. 1999-cu ildən "Kredo" qəzetinin baş redaktoru kimi fəaliyyət göstərirsiniz.

Bədii yaradıcılığa erkən yaşlarınızdan başlamısınız. "Karvan körpüdən keçir", "Baş daşımın yazıları", "Yurdun övladları", "Ocağımın işığı", "İçəri şəhər, daşlar, insanlar", "Həsrət körpüsü", "Sözə doğru", "Dünyanın söz üzü", "Arzulara dəyən güllə", "Dilimiz-varlığımız", "Araz ağrısı", "Dünya yazana qaldı", "Yaddaşa aparan yollar", "Üçüncü dünyanın qorxusu", "Qırmızı həqiqətlər", "Od", "Damcılı", "Gəyən əfsanəsi", "Ruhun daşqını", "Qiyamətdən bir gün əvvəl", "Bir ayrılıq odu var" və bu sıradan olan 60-a qədər kitabınız nəşr olunub.

Siz "Qızıl qələm" media mükafatına, "Məmməd Araz" ali ədəbi mükafatına, AYB-nin Bədii Ədəbiyyatı Təliğ Bürosunun "Qılınc və qələm" yaddaş mükafatlarına, Beynəlxalq "Rəsul Rza", "Şahmar Əkbərzadə" mükafatlarına, Səməd Vurğun Fondunun diplomuna layiq görülmüsünüz. Yaradıcılığınız haqqında çoxsaylı nəşrlər işıq üzü görüb.

Hörmətli Əli Rza Xələfli, sizi bir daha 70 illik yubileyiniz münasibətilə təbrik edir, sizə uzun ömür, yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2023- cü il.- 14 oktyabr.- S. 28.- №-39.